**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizəd Tahir İlyasovun 28 dekabr 2009-cu il tarixli 199 saylı, bələdiyyə üzvlüyünə namizəd Qulaməli Həsənovun 28 dekabr 2009-cu il tarixli 208 saylı, vətəndaş Kamil Ağamirzəyev və digərlərinin 28 dekabr 2009-cu il tarixli 219 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 2009-cu il dekabrın 28-də 102 saylı Samux – Şəmkir seçki dairəsi üzrə Qarayeri bələdiyyəsinin üzvlüyünə namizəd Tahir İlyasov, 87 saylı Ağsu seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Qulaməli Həsənov, həmçinin 27 dekabr 2009-cu il tarixdə 50 saylı Qobustan-Xızı -Quba seçki dairəsi üzrə vətəndaş Kamil Ağamirzəyev və digərləri göstərilən seçki dairələrinin ərazilərində seçki prosesi zamanı bəzi qanun pozuntularının baş verməsini bildirmiş və qanunla müəyyən edilmiş tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciətlər nəzərdən keçirilmiş və onların verilmə tarixindən müəyyən edilmişdir ki, şikayətlər seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü şikayətlərin geri qaytarılması barədə rəylər vermişdir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin şikayəti ilkin olaraq nəzərdən keçirir, bu zaman ekspert şikayətin Seçki Məcəlləsi və bu Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Ona görə də iddia edilən qanun pozuntularından qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə şikayət verilmədiyindən, müraciətlər mahiyyəti üzrə araşdırılmadan geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Bələdiyyə üzvlüyünə namizəd Tahir İlyasovun 28 dekabr 2009-cu il tarixli 199 saylı, bələdiyyə üzvlüyünə namizəd Qulaməli Həsənovun 28 dekabr 2009-cu il tarixli 208 saylı, vətəndaş Kamil Ağamirzəyev və digərlərinin 28 dekabr 2009-cu il tarixli 219 saylı

müraciətləri qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |